# Nüfuz sahibi



**İstər nazirlik, onun ayrı-ayrı struktur və şöbələrində, istərsə də Ağstafada Gülgün müəllim haqqında narazı danışan görməzsən. Fərəhli haldır ki, qonşu bölgələrdə də eyni halın şahidi oluruq.**

Bütün bu nüfuzu Gülgün Kərimov səmimiyyəti, mehribançılığı, işgüzarlığı, mükəmməl savadı, geniş dünyagörüşü, dosta sadiqliyi, işinə məhəbbəti, vəzifəsinə məsuliyyəti ilə qazanıb.

Kərimov Gülgün Kərim oğlu 1959-cu il may ayının 30-da Poylu kəndində anadan olub.

1976-cı ildə orta məktəbi bitirib. Həmin il Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olub. Ali məktəbi 1980-ci ildə bitirib. 1980-82-ci illərdə əsgəri xidmətdə olub.

1982-ci ildən 1986-cı ilədək Qazax Rayon Mədəniyyət Evində bədii rəhbər, xalq teatrının rejissoru işləyib. "Gülül" və "Çeşmə" adlı xalq çalğı alətləri ansambllarını yaradıb. Bir neçə dram əsərini tamaşaya hazırlayıb.

1986-cı ildən 1990-cı ilin sentyabr ayınadək Ağstafa şəhər klubunun direktoru olub. Klubun nəzdində təsərrüfat hesabı ilə işləyən və 8 nəfəri ətrafında birləşdirən "Dastan" aşıqlar ansamblı yaradıb. Aşıq musiqisinin təbliği məqsədilə rayonun, eləcə də qonşu rayonların azərbaycanlılar yaşayan kəndlərində konsertlər təşkil edib, digər müxtəlif dərnəklər yaradaraq əhaliyə pulu xidmət planını artıqlaması ilə yerinə yetirib.

1990-cı il sentyabr ayının 21-dən Ağstafa Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri vəzifəsində çalışır.

İşlədiyi dövrdə mədəni-kütləvi tədbirlərin hazırlanması, şəbəkənin genişləndirilməsi, yeni iş yerlərinin yaradılması, bədii özfəaliyyət kollektivlərinin repertuar zənginliyinə nail olunması, ixtisaslı kadrların yerləşdirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi və s. işlərin görülməsində mühüm rol oynayıb.

Ağstafa

G.Kərimovun dediklərindən:

- 1950-ci illərdə inşa edilmiş rayon mədəniyyət evinin maddi-texniki bazası demək olar ki, yenidən qurulmuşdur. Tarix-diyarşünaslıq və Hüseyn Arifin ev-muzeyləri, Dövlət Rəsm Qalereyası, yeni mədəniyyət evləri, klub və kitabxanalar yaradılaraq şəbəkəyə daxil edilmiş, onlarla iş yerləri açılmışdır.

Qəza vəziyyətinə görə fəaliyyəti dayandırılmış Dağ Kəsəmən kənd mədəniyyət evi balansa götürülmüş, aidiyyatı orqanlar qarşısında məsələ qaldırılmış, Fövqəladə Hallar Nazirliyi tərəfindən bərpa və təmir işləri aparılaraq istifadəyə yararlı hala salınmışdır.

"Oğuztayfa" instrumental, "Dastan" aşıqlar, "Qönçə" uşaq , "Ləman" rəqs, musiqi məktəbinin "Xor" kollektivlərinə müasir zövqə uyğun səhnə paltarları tikdirilərək istifadəyə verilmişdir.

Xalq şairi Hüşeyn Arifin qəbirüstü abidəsinin və büstünün, şair-filosof Aslan Aslanovun, əməkdar incəsənət xadimi Həmid Abbasın büstlərinin inşa edilməsində bilavasitə təşəbbüskar və icraçı olmuşdur.

Fəaliyyəti dövründə əlamətdar günlərə, bayramlara, yubileylərə həsr edilmiş tədbirlərə yaradıcı münasibət bəsləmiş, gənc istedadların, bədii özfəaliyyət kollektivlərinin üzə çıxarılması məqsədilə müsabiqələr təşkil etmiş, yerli yaradıcı insanlarla görüşlərə önəm vermişdir...

Biz görülən işlərin siyahısını bir az da uzada, həyata keçirilən çoxsaylı tədbirlər barədə daha müfəssəl danışa bilərik. Ancaq məqsədimiz o deyil. Bu yazını qələmə almaqla möhtərəm oxucularımıza respublikamızın sayılıb-seçilən şöbə müdirlərindən biri - Gülgün Kərimovun 50 yaşının tamam olmasını xəbər vermək istədik.

Yubileyi münasibətilə Gülgün müəllimi bütün dostları, iş yoldaşları, nazirliyimiz və təbii ki, yaradıcı kollektivimiz adından təbrik edir, ona xoşbətlik, cansağlığı və gərəkli fəaliyyətində uğurlar arzulayırıq.

**● TURAL**